

*Musa Xanbabazadə,*
*filoloq-ədəbiyyatşünas,*
*AJB-nin üzvü*

# Sən nə yaman qocalmısan, Rüstəmxanlı Sabirimiz?!

## (Xalq şairi S.Rüstəmxanlının 70 illiyinə)

*(mənsur şeir)*

**... Bilirəm ki, deməyəcək**
**Bir sevgilim, bir də Vətən:**
**Şair, nə tez qocaldın sən?!**

**Səməd Vurğun**

**YARDIMLIda-uca dağların qoynunda yaşar bir kənd-yaşar qocaman HAMARKƏND. Yaşar hiylədən-kələkdən kənar. İblisdən-şeytandan kənar. Şər və böhtandan kənar. Yaşar bu kənd keçmişinə sədaqətli. Bu gününə xoş niyyətli. Sabahına min inamlı-qətiyyətli. Yaşar bu kənd yaddaşında qohum-qardaş ucalığı. Dayıəmi doğmalığı. Yaşar bu kənd yaşar imanlı-inanclı. Yaşar bu kənd ağzı dualı-sənalı. Yaşar bu kənd söykökünə bənd-bənd bağlı. Yaşar bu kənd Təbriz, Ərdəbil soraqlı...**

Bu balaca dağ kəndində 1946-da gül-çiçəkli may ayında ayaq açdı bu dünyaya Rüstəmxanlı Sabirimiz. Sevinc oldu, fərəh oldu halalzadə bir ocağa. Əzizlərin-doğmaların ürəkləri döndü dağa. Amma neçə yaşıdıtək bir urvatlı gün görmədi. Seçilmədi bir-birindən nə baharı, nə də qışı. Aclıq oldu, qıtlıq oldu yol yoldaşı. Nazik oldu əyin-başı. Ömür elədi bir qarın tox, bir qarın ac. Evlərində at oynatdı kor ehtiyac. Xoşbəxtlikdən o uğursuz-nəhs illərdə sarsılmadı Xudu kişi, Ağanaz ana. Bir cüt simurq quşu kimi hifz etdilər öz balaca Sabirini ölümlərdən-itimlərdən. Hifz etdilər ehtiyacdan və aclıqdan, qəhətlikdən və qıtlıqdan. O uşaqlıq illərində min dərdini, min acını yeyə-yeyə SƏN nə qədər qocalmısan, Rüstəmxanlı Sabirimiz! Ölməmisən. Boy atmısan. Gələcəyə yol almısan, Rüstəmxanlı Sabirimiz.

Gül nəfəsli, bülbül səsli, şirin dilli o Ağanaz anamızın laylasından axıb SƏNin varlığına dilimizin şirinliyi, zənginliyi, musiqisi, harmoniyası. O qadının çağırdığı bayatı və ağılardan hopub SƏNin varlığına dilimizin hecaları, vurğuları. Saitlərin, samitlərin min ahəngli, min avazlı simfoniyası. Rüstəmxandan və Xududan SƏNə, mənə miras qalan dilimizin təmizliyi, şəffaflığı keşiyində dayanmısan dilimizin sərkərdələr sərkərdəsi feil kimi. Döyüşlərdə dizlərini qatlamayan 70 yaşlı bir fil kimi! Qoymayırsan isimlərin, sifətlərin, zərflərin cərgəsinə yad ellərdən, yad dillərdən sözlər keçə. İstəmirsən Vətəninin oğlu-qızı gəlmə sözlər çeşməsindən boz-bulanıq sular içə. 70 ildir döyüşdəsən-savaşdasan türk dilinin, türk elinin təmizliyi, ölməzliyi uğurunda. Təqiblərdən-təhdidlərdən, atmaca və eyhamlardan əsla belə çəkinmirsən atılsan da qaynar suya, yanar oda. Bu müqəddəs savaşlardan SƏN üzüağ, alnıaçıq keçə-keçə adı bizdən, eşqi-ruhu özgələrdən qaynaqlanan, atasından-anasından neçə-neçə xəbərsizi kol-kos kimi biçə-biçə, gör necə də ləyaqətlə qocalmısan, Rüstəmxanlı Sabirimiz. Türkün sənət sütunları ocağında-bu ağsaçlı Azərbaycan torpağında yerin dərin qatlarına kök ataraq SƏN necə də vüqar ilə ucalmısan, Rüstəmxanlı Sabirimiz!

1963-1968 arasında ömrünün düz beşcə ili zəka-irfan işığına bürünübdü universitet qucağında-bir qocaman elm-sənət ocağında. Təşnə idin elmləri öyrənməyə. Elm-bilik bulağından qətrə-qətrə nuş etməyə. Böyük-böyük alimləri dinləməyə. Acgözlüklə dinləyirdin dilimizin nəhəngini-Hüseynzadə Muxtarı SƏN. Hörmət ilə yanaşırdın professor Mirzəzadə Hadiyə SƏN. O ağsaçlı Səlim Cəfər SƏNə doğma-əziz idi. Mehribanlıq-səmimiyyət, mülayimlik-qayğıkeşlik etalonu Mir Cəlalı çox sevərdin. Onun təmiz, onun büllur nəfəsindən Ərdəbilin havasını SƏN udardın. Bu havanı yanayana, udum-udum ürəyinə-ciyərinə SƏN çəkərdin. Heyranlıqla-vurğunluqla dinləyirdin Vahabzadə Bəxtiyarı-öz xalqına-millətinə sonsuz eşqlə bənd-bənd bağlı o cəfakeş vəfadarı. Hər çıxışı-mühazirəsi nur saçırdı məslək-amal yollarına. Güc verirdi qollarına. Ürəyinə damcı-damcı axıdırdı türk ruhunu-havasını. Türk oğlunun göylər qədər əngin-zəngin sevdasını. Hər eyhamı-atmacası istiqlala, oyanışa-dirənişə çağırış idi. Köləliyə-mütiliyə, yazıqlığa nifrət idi, qarğış idi. Bu ustadın müstəqillik və azadlıq duyğusundan mayalanan əsərləri qoymayırdı ürəyində körüklənən millət-vətən savaşları öləzisin. İllər ilə xəyalında bəslədiyin cənnətmisal bağçabağı şaxta vursun, külək kəssin. İnanırdın ustadının istiqlal sevgisinə. Müstəqillik yanğısına. O cağlardan - o qayğılı, o qayğısız tələbəlik illərindən öz ömrünü-həyatını millətinin və xalqının istiqlal savaşına bağladın SƏN. Bu müqəddəs savaşlarda çəkinmədin imperiyanın dürlü-dürlü işgəncə və əzabından. Zorundan və şiddətindən. Kinindən və nifrətindən! Öldürmədin. Susdurmadın müstəqillik duyğusuyla körüklənən neçə-neçə harayını, neçə-neçə fəryadını! Və günlərin bir günündə gördük ki, SƏN "atıldın cəngə. Döndün millətini oyadan zəngə!" Ölüm idi. Zülm idi istiqlal savaşları. Dəhşət idi. Vəhşət idi istiqlal çarpışları. Qorxu idi. Hürkü idi istiqlal vuruşları. Bu ağrılı, bu acılı savaşlarda, bu əzablı-iztirablı çarpışlarda imperiya ilə cəng-cidalda SƏN nə qədər məğrurənə qocalmısan, Rüstəmxanlı Sabirimiz. İstiqlalı, azadlığı, qurtuluşu qartımış bir yalquzağın qurd ağzından qətiyyətlə-cəsarətlə, zorla-güclə SƏN almısan, Rüstəmxanlı Sabirimiz. Millətinin gözlərində ucalmısan, Rüstəmxanlı Sabirimiz!

Ağlın kəsən gündən bəri ulu əcdadların kimi yorulmadan yollardasan. İlk beşiyin Hamarkənddən başlanan yol SƏNi çox-çox uzaqlara aparıbdı. Aylar ilə SƏNi doğma Yardımlıdan, xan Şuşadan, Cavad xanın Gəncəsindən, göy Xəzərin aynasında sığallanan Lənkərandan qoparıbdı. Bu yol SƏNi türk ruhunun dolaşdığı məskənlərə qovuşdurub. Qovuşdurub bu yol SƏNi türk beşiyi yırğalanan obalara. Türk ocağı çatıldığı oymaqlara. Bu yol SƏNi Urmiyədən Altayadək gəzdiribdir. Adlayıbsan bu yol ilə boz səhralar qucağından. Qanadlanıb atlanıbsan uca dağlar zirvəsindən. Oxşayıbdı qulağını qopuz səsi. Bir də şaman duaları. Bu yol bələdçin olubdur Amerikada, Almaniyada, Fransada, Yaponiyada. Bu yol ilə yan-yanaşı addımladın İspaniyada, İtaliyada, Suriyada, həm Beyrutda, həm də Çində... Səyahətə, gəzintiyə çıxmamışdın o yerlərə. Çıxmışdın ki, ucauca kürsülərdən var səsinlə, gur səsinlə çatdırasan SƏN dünyaya: "Azərbaycan torpaqları işğaldadır. Söndürülüb ocağımız. Dağıdılıb yurd-yuvamız. Pərən düşüb yer üzünə qaçqınımız-köçkünümüz..." Yana-yana danışırdın. Qəzəbindən alışırdın. Dilindən dərd tökülürdü. Həqiqətin, doğruluğun haqq səsindən daşnakların, dığaların qədd-qaməti bükülürdü. Kürsülərdə Qoşqar idin. Savalandın. Söykənmişdin uca-uca dağlara SƏN. Vüqarlıydın. Çinarlıydın. Məğrurluydun. Sarsılmazdın. Əyilməzdin. Vüqarlana-vüqarlana, çinarlana-çinarlana, məğrurlana-məğrurlana gör necə də xoşbəxt-xoşbəxt qocalmısan, Rüstəmxanlı Sabirimiz. Gündoğandan Günbatana, Günbatandan Gündoğana çıraq tutan türk yurdları ürəyində sıra-sıra dağlar kimi ucalmısan, Rüstəmxanlı Sabirimiz!

Azərbaycan iki yerə parçalanmış lay divarlı, dağ vüqarlı bir igiddir. Bir parçası o sahildə, bir parçası bu sahildə yaş axıdır gözlərindən gildir-gildir. Qovuşdurmaq istəyirsən bu igidin bir-birindən uzaq düşən əllərini. Bir-birinə doğma-əziz dillərini. Şad xəbərlər, xoş müjdələr gözləyirsən o sahildən-bu sahildən. Fəqət gəlmir nə bir xəbər, nə bir müjdə. Yenə-yenə gözləyirsən. Əllərini gümanlardan, ümidlərdən üzməyirsən. O xəbərlər, o müjdələr sorağında vüsal-həsrət nəğmələri dodağında illərdir ki, möhnət yükü çəkə-çəkə gör necə də qocalmısan, Rüstəmxanlı Sabirimiz. Məmləkətin gözlərində ulduzlara, günəşlərə ucalmısan, Rüstəmxanlı Sabirimiz.

Başdan-başa dolaşıbsan SƏN Türküstan ellərini. Uca-uca dağlarını, gözişləməz yaşıl-yaşıl çöllərini. Türk yurdları öz bağrına basıb SƏNi doğma-əziz balasıtək. Bu ülfətdən, bu mehrdən dağa dönüb sinəndəki odlu ürək. Pişvazına çıxıb SƏNin Krım, Kıprız oymaqları. Yorğun-arğın ruhuna min sığal çəkib Qazaxıstan, Özbəkistan irmaqları. Balkanlarda, türkmənlərdə, tatarlarda dincəlmisən. Türkiyəyə, Hindistana... hara ayaq basıbsansa, ayağını sığallayıb ulu türkün xatirəsi. Başın üstdə dolaşıbdı məğrur türkün ölməz ruhu. Səslənibdi qulağında ağır-ağır döyüşlərin qılınc-səsi, mızraq səsi. Dodağında çiçəkləyib qədim-qədim mahnıların canasinər şaqraq səsi. Qucaq açıbdı SƏNə türkün canlı şahidi qocaman Orxon çayı-Allahın yer üzünə əbədi bəxş etdiyi ən gözəl tanrı payı. Oxudun acgözlüklə. Oxudun birnəfəsə ərlərin-ərənlərin ölməyən ruhlarını özündə hifz eləyən Orxon yazılarını. Diz çökdün dönə-dönə illərin o tayından boylanan neçə-neçə nurlu sözlər önündə. Ehtiramla baş əydin haqqın və ədalətin ulu əcdadlarına. Düzlüyün-doğruluğun qulu əcdadlarına. Səcdə qıldın el uğrunda, dil uğrunda qılınc çalan, türkü qoşan qılınc övladlarına, qələm ustadlarına. Yanıb-yanıb yaxılıbsan. Qaya kimi çapılıbsan Bilgə xaqan ölümünə-bu cəsurun, bu müdrikin Çin qızının hiyləsinə vaxtsız qurban getməyinə. Xəyanətin, sui-qəsdin törətdiyi fəlakətlər qovğasında SƏN yamanca qocalmısan, Rüstəmxanlı Sabirimiz. Ərlərinin xörəyinə zəhər qatan qadınlara, atasına ox tuşlayan oğullara nifrətinlə-qəzəbinlə bulaq-bulaq çağlamısan, Rüstəmxanlı Sabirimiz!



1980-lərdə erməni-rus cütlüyünə, erməni-rus birliyinə (gicliyinə) var gücünlə məmləkəti etiraza-dirənişə çağırıbsan. Qəlbi pozğun, ruhu darğın, türklərə və Türküstana hədsiz kinli-küdurətli başabəla bir yazarın-SƏN o Zori Balayanın "Ocaq"ı-na yerin-göyün yekə-yekə daşlarını yağdırıbsan. Çəkinmədən nə terrordan, nə həbsdən SƏN bu Zori Balayanların-bu qırmızı ilanların qabağında tufanlarda əyilməyən, şimşəklərdə basılmayan gövdəli bir çinar kimi gör necə də məğrurənə dayanmısan. Firənglərin və rusların süfrəsində tör-töküntü gəvələyən zatıqırıq nankorlarla vuruşlarda gör necə də mətanətlə-dəyanətlə qocalmısan, Rüstəmxanlı Sabirimiz. Ayvazyandan, Kaputikyandan, Balayandan... gör necə də öc almısan, bac almısan. Məmləkətin gözlərində qarış-qarış, pillə-pillə ucalmısan, Rüstəmxanlı Sabirimiz!

1986-nın 25 aprelində Natəvan klubunda ədəbiyyat barədə əhatəli-sanballı geniş məruzə yapdın. Sovetlər dönəminin broy-broy çağında ruhunda protesto, üsyan, inkar çağlayan belə məruzə yapmaq cürətcəsarət idi. Dağıtdı-tar-mar etdi marksist fikirləri, köhnə düşüncələri. Dəlil-sübutlar ilə açdı-tökdü ortaya sovet ədəbiyyatının qul-kölə durumunu. Xalqa-millətə deyil, irticaya, kommunizmə xidmətçi olduğunu ildırım çaxışına bənzəyən bu Məruzən! Ədəbiyyat kürsüsündə mürgüləyən neçə yüz şeirbazı yuxusundan oyatdı. Şöhrətin kölgəsində xumarlanan neçə yüz nəsrbazın bostanına daş atdı Natəvan klubunda tufan kimi gurlayan, tonqaltək alovlanan, paslanmış beyinləri yeryerdən silkələyən SƏNin büllur Məruzən, SƏNin o pak, SƏNin o nur Məruzən! Cərrah kimi doğradı-tökdü, təşrih etdi şerin, nəsrin dalınca yalmanan-yaltaqlanan tənqidçiləri bir-bir. Topa tutdu "quldarın qulu tənqidçi"ləri.

Mitilinə od vurdu "ulaqları qoruyan çullu tənqidçi"ləri. Qəbiristana göndərdi "kölə tənqidçi"ləri, "ölü tənqidçi"ləri SƏNin qurd südü əmmiş bu mərd-məğrur Məruzən! Şeirbazlar ordusu, nəsrbazlar zümrəsi, tənqidbazlar dəstəsi salondan qanlı-qanlı SƏNi yaman süzürdü. Həqiqətə söykənən, doğruluqdan güc alan hər abzasın, hər cümlən bu şaircığazların, bu nasirciyəzlərin ürəyini üzürdü. Bu zatların qəzəbli-hiddətli baxışları zəhərli oxlar kimi tuşlanmışdı köksünə. Saplanmışdı sinənə! Bu şeir qarğalarıyla, bu nəsr dağlarıyla, bu tənqid yorğalarıyla SƏN döyüşə-döyüşə, SƏN vuruşa-vuruşa mərdanə qocalmısan, Rüstəmxanlı Sabirimiz! Və qocala-qocala şeir-sənət dünyasına əngəllərin başlarından gürz çalmısan, Rüstəmxanlı Sabirimiz!

1990-ın 20 Yanvarında - bir şənbə gecəsində rus ordusu-bu iblis-kabus ordusu divan tutdu azadlığa təşnələrə. Bağımsızlıq yanğısıyla körüklənən sinələrə. Daş asfaltda çiçəkləndi şəhidlərin cəsədləri həmin gecə. (Bu dərd bizi göynədəcək o dünyaya köç edincə!) Qan ağladı yer də, göy də rusun bizə yaşatdığı dəhşətlərə-vəhşətlərə. Çeşid-çeşid zülmlərə. Dürlü-dürlü zillətlərə. Bu dağ boyda müsibətlər, qardaş, SƏNin yandırırdı kürəyini. Sızladırdı ürəyini. Ağladırdı gözlərini. Bükürdü fil dizlərini. Allah bilir, tükürpərdən, qan donduran o məlun-məşum gecədə öz hirsini boğa-boğa, öz içini sökə-sökə SƏN nə yaman qocalmısan, Rüstəmxanlı Sabirimiz! Nifrətini-qəzəbini toparlayıb Koroğlunun şeşpəritək düşmənlərin dəbilqələri başlarından SƏN çalmısan! Millətinin gözlərində pillə-pillə, addım-addım ucalmısan, Rüstəmxanlı Sabirimiz!

**(ardı 13-cü səhifədə)**